AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin*
*12.09 2022–ci il tarixli F-531 №- li*
*əmri ilə təsdiq edilmişdir.*

ƏSLİ İLƏ DÜZDÜR

AZƏRBAYCAN RESPUBLİKASI * ELM və TƏHSİL NAZİRLİYİ * İNFORMASİYA VƏ VƏTƏNDAŞLARA XİDMƏT ŞÖBƏSİ

# "Kosmesevt"

## peşə hazırlığı üzrə səriştəəsaslı modul tipli

## Təhsil Proqramı (Kurikulum)

**Bakı – 2022**

## Mündəricat


1. Terminlər, simvollar və ixtisarlar ........ 3
2. Ümumi müddəalar ........ 4
3. Peşənin (ixtisasın) xüsusiyyəti və təsviri ........ 5
4. İxtisasın tədris planı – modulların siyahısı ........ 6
5. Modulların spesifikasiyası ........ 7
6. Attestasiya və qiymətləndirmə ........ 20
7. Tədris edəcək pedaqoji heyətə qoyulan tələblər ........ 21

## 1. Terminlər, simvollar və ixtisarlar

**Peşə standartı** – konkret peşə sahəsi üzrə işçinin yerinə yetirməli olduğu işin məzmununa və əmək şəraitinə qoyulan minimum tələblərin məcmusudur;

**Sertifikat** – müəyyən istiqamət üzrə təlim nəticələrinin əldə edilməsini təsdiq edən sənəd;

**Bacarıq** – tapşırıqların yerinə yetirilməsi və problemlərin həll edilməsi üçün biliklərin tətbiqini və təcrübənin istifadəsini özündə birləşdirir. Bacarıq minimal vaxt və enerji (və ya hər ikisini) sərf etməklə, əvvəlcədən müəyyən edilmiş nəticələrin əldə olunmasına yönəldilmiş xüsusiyyətdir.

**Bilik** – təlim (öyrənmə) prosesi vasitəsilə informasiyanın mənimsənilməsinin nəticəsidir. Bilik fəaliyyət və ya təhsil sahəsi ilə bağlı fakt, prinsip, nəzəriyyə və praktikanın əsasını təşkil edir.

**Kompetensiya (səriştə)** – şəxsin müvafiq bilik, bacarıq və yanaşmadan istifadə edərək, fəaliyyəti peşəkar mühitdə tələb olunan standartlara uyğun icraetmə bacarığıdır;

**Təlimin nəticəsi** – təhsilalanın nələri bildiyini, mənimsədiyini və təlim prosesini bitirdikdən sonra nəyi edə biləcəyini göstərən, eləcə də bilik, bacarıq və kompetensiyaları (səriştələri) müəyyən edən göstəricilərdir;

**Qiymətləndirmə meyarları** – tədris kursu və ya modulu çərçivəsində nəzərdə tutulan təlim nəticələrini təhsilalan tərəfindən hansı səviyyədə mənimsənilməsini müəyyən etmək məqsədi ilə qiymətləndirən tərəfindən istifadə olunan ölçü vahidləridir;

**Kosmetologiya** - estetik problemlərin həlli ilə məşğul olan elmdir. Bu elm özünəməxsus vasitələrlə insanın xarici görkəmindəki qüsurları aradan götürməklə məşğul olur.

**Kosmosevt** - pasiyentlərə yüksək ixtisaslı kosmetoloji yardım və kosmetik xidməti həyata keçirən peşəkardır.

## 2. Ümumi müddəalar

Bu təhsil proqramı təhsilalanların müvafiq sahə üzrə bilik, bacarıq və vərdişlərə yiyələnmələrinə imkan yaratmaqla onları səmərəli əmək fəaliyyətinə hazırlayacaq. Proqramı uğurla başa vuran təhsilalanlar müasir əmək bazarında işçidən tələb olunan və işəgötürənlər tərəfindən müəyyən edilən səriştələrə yiyələnəcəklər.

Təhsil proqramı Azərbaycan Respublikasının "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarına, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi", "Peşə təhsilinin dövlət standartları"nın tələblərinə uyğun hazırlanmışdır.

Təhsil proqramının (kurikulumun) məqsədi təhsilalanları müvafiq ixtisas üzrə peşə fəaliyyəti üçün tələb olunan nəzəri və praktiki bilik və bacarıqların aşılanmasıdır. Proqramda verilən saatların miqdarından asılı olaraq təhsilverənlər mövzuların ardıcıllığının seçimində və onlara ayrılan saatların bölgüsündə sərbəstdirlər. Təhsilalanların hazırlıq səviyyələrindən və maraq dairələrindən asılı olaraq mövzuların təlim ardıcıllığını dəyişdirilə və onlara ayrılan saatların ümumi miqdarı saxlamaqla mövzular üzrə bölgüsü dəyişdirilə bilər.

| | |
|---|---|
| **Təsnifat üzrə ixtisasın şifri (kodu):** | 030220 |
| **İxtisasın adı:** | Kosmosevt |
| **Məşğulluq təsnifatında kodu:** | 5142 |
| **İqtisadiyyatın əhatə olunan sahələri:** | Kosmetologiya |
| **Qəbul tələbləri:** | Tam orta təhsil |
| **Peşə üçün spesifik tələblər:** | |
| **Təhsil müddəti:** | 650 saat |
| **Kursun məzmunun ümumi təsviri:** | "Kosmesevt" təliminin məqsədi təlim iştirakçılarına gigiyena və sanitariya normaları gözlənilməklə müxtəlif kosmetoloji qulluq prosedurаların icrası üçün nəzəri və praktiki vərdişləri qazandırmaqla onların mütəxəssis olaraq yetişdirilməsini təmin etməkdir. |

## 3. Peşənin (ixtisasın) xüsusiyyəti və təsviri

"Kosemesevt" təlimi iştirakçıları müxtəlif kosmetologiya, gözəllik və estetik mərkəzlərdə, həmçinin müxtəlif kosmetoloji xidmət təklif edən müəssisələrdə Kosemesevt peşəsinin qəbul edilən standartlara uyğun icrası üçün ilkin bacarıqları aşılamaqdır. Kosmetologiya özündə orqanizminin integumentar toxumalarının funksionallığı və bütövlüyünü qoruyub saxlamağa və ya bərpa etməyə yönəlmiş tibbi və reabilitasiya kompleks tədbirləri əhatə edir. "Kosmosevt" ixtisasına yiyələnmiş şəxslər nəzəri biliklər və praktiki bacarıqlara əsaslanaraq pasiyentlərə yüksək keyfiyyətli kosmetoloji yardım və kosmetik xidməti həyata keçirəcəklər.

Təlim ərzində iştirakçılara anatomiya və dermatologiya, sanitariya və gigiyena, muzoterapiya və müxtəlif klassik kosmetoloji qulluq tədbirləri üzrə nəzəri biliklər tədris ediləcək, həmçinin müxtəlif kosmetoloji qulluq tədbirlərinin düzgün tətbiqi ilə bağlı praktiki vərdişlərə yiyələnməsi təmin ediləcəkdir. Təlim iştirakçılara qəbul edilən standart və qanunlara əsasən estetik qüsurların yaranması və inkişafı haqqında bilik və bacarıqlarını təkmilləşdirmək, onların düzəldilməsi, reabilitasiyası və profilaktikası üsullarını mənimsəmək, kosmetologiya sahəsində tibbi yardımın göstərilməsinin təşkili məsələlərini öyrədəcəkdir.

Təlimin məqsədi müxtəlif işəgötürənlərdə müvafiq vəzifədə çalışmağa qabil mütəxəssis hazırlamaqdır.

**Məşğulluq imkanları:**

Təhsilini başa vurduqdan sonra məzun müxtəlif kosmetologiya, gözəllik və estetik mərkəzlərdə, həmçinin müxtəlif kosmetoloji xidmət təklif edən müəssisələrdə Kosmesevt peşəsinin vəzifə təlimatından irəli gələn pasiyentlərə yüksək keyfiyyətli kosmetoloji yardım və kosmetik xidməti həyata keçirirməyi bacaracaqlar. Müvafiq təcrübə, bacarıq və təhsil əldə etdikdən sonra rəhbər və daha yüksək texniki vəzifələrə yüksəlmək imkanları var.

## 4. İxtisasın tədris planı – modulların siyahısı

İxtisasın adı: Kosmesevt
Təhsil müddəti: 5 ay

| № | Bölmələr, təhsil sahələri, modullar (fənlər) | Saatların miqdarı | Kurs üzrə həftəlik dərs saatlarının miqdarı | | | Məsləhət saatları |
|---|---|---|---|---|---|---|
| | | | 10 | 10 | 2 | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| | | | | | | |
| 1 | Peşə etikası | 10 | 1 | | | |
| 2 | Sahibkarlıq | 10 | 1 | | | |
| | | **20** | **2** | **0** | **0** | **0** |
| | | | | | | |
| | **Peşə-ixtisas fənləri (modulları), nəzəri** | **260** | ***15*** | ***11*** | ***0*** | |
| 3 | Anatomiya və Dermatologiya | 40 | *3* | *1* | | |
| 4 | Sanitariya və gigiyena | 20 | *2* | | | |
| 5 | Diyetologiya və nutrisevtikanın (sağlam qidalanma) əsasları | 20 | *2* | | | *1* |
| 6 | Klassik mezoterapiya | 20 | *2* | | | *2* |
| 7 | Klassik kosmetologiya | 160 | *6* | *10* | | *2* |
| | | | | | | |
| | **İstehsalat təlimi (praktik modullar)** | **200** | **8** | **12** | | |
| | | | | | | |
| | **İstehsalat təcrübəsi** | **180** | **4** | **6** | **30** | |
| | | | | | | |
| | **Tələbələrin maksimum məcburi dərs yükü** | **640** | **29** | **29** | **30** | |
| | Məsləhət / imtahan | 10 | | | | |
| | **YEKUN** | **650** | | | | |

## 5. Modulların spesifikasiyası

| | |
|---|---|
| **Modulun adı:** | **Anatomiya və Dermatologiya** |
| **Modulun kodu:** | |
| **Modul üzrə saat:** | **40 saat** |
| **Modulun növü:** | **Məcburi** |
| **Modulun ümumi məqsədi:** | Ümumi anatomiya və üz anatomiyası üzrə anlayışları, həmçinin dərinin anatomiyası və fiziologiyası, rast gələnən dəri xəstəlikləri haqqında məlumatların öyrədilməsi modulun əsas məqsədini təşkil edir. |

| Təlim nəticəsi | Qiymətləndirmə meyarı | Mövzu | Tədris saatı |
|---|---|---|---|
| **Dərinin anatomiyası, histologiyası və fiziologiyası** | Dermatologiya üzrə ümumi anlayışlara malikdir | İnsan dərisi. Üz dərisinin quruluşunun xüsusiyyətləri.<br>Dərinin histologiyası: epidermis, dermis, hipodermis, dəri vəziləri, saçlar, dırnaqlar. | 14 |
| | Dərinin funksiyalarını sadalayır | Dərinin funksiyaları: qoruyucu, termotənzimləyici, ifrazat, sekretor, tənəffüs, mübadilə. Dərinin hissiyyat orqanı kimi dəyəri.<br>Dərinin mərkəzi sinir sistemi ilə əlaqəsi.<br>Su-lipid mantiyası.<br>Dərinin epidermal baryerinin quruluşu.<br>Dərinin elastikliyi və möhkəmliyi. Kollagen sintezi.<br>Təbii nəmləndirici faktorun (NMF) anlayışı.<br>Transepidermal nəm itkisi.<br>Melanogenez.<br>İntegumentar toxumaların neyrohumoral tənzimlənməsi.<br>Dəri əlavələrinin quruluşu və funksiyası. | |
| | Saçın xüsusiyyətləri, quruluşu və inkişaf mərhələlərini sadalayır. | Saç. Morfofunksional xüsusiyyətlər.<br>Saçların inkişaf mərhələləri. Vellus saçlar.<br>Küləş saçlar. Uzun saçlar.<br>Müxtəlif yaş dövrlərində saçların fiziologiyası.<br>Endokrinopatiyalarda saçın fiziologiyası və quruluşu. Saç quruluşunun yaş, cinsi və irqi xüsusiyyətləri. | |
| | Dırnağın anatomisyası, xüsusiyyətləri və funksiyalarını izah edir | Dırnaqlar. Morfofunksional xüsusiyyətlər.<br>Dırnaq yatağının və dırnaq plastinlərinin anatomiyası və funksiyası. | |
| | Piy və tər vəzilərinin fiziologiyası və funksional fəaliyyətini izah edir. | Piy vəziləri. Piy vəzilərinin funksional fəaliyyəti.<br>Müxtəlif yaş dövrlərində və müxtəlif fizioloji vəziyyətlərdə yağ vəzilərinin fiziologiyası.<br>Tər vəziləri. Morfofunksional xüsusiyyətlər. Tər vəzilərinin sekretor və ifrazat funksiyası.<br>Bədənin termorequlyasiyasında tər vəzilərinin iştirakı. | |
| | Yağ toxumaları növləri, onların quruluşu və funksiyalarını izah | Hipodermisin quruluşu və funksiyası. Dərialtı yağ toxumasının və onun stromasının quruluşu və fiziologiyası. Yağ toxumasının növləri. Yağ metabolizması. Adipositlərin | |

| | | | |
|---|---|---|---|
| | edir. | fiziologiyası. Dərialtı yağ toxumasında qantəchizatı və toxuma mayelərinin mübadiləsi. | |
| **Dəri xəstəlikləri** | Dəri xəstəliklərinin səbəblərini sadalayır. | Dəri xəstəliklərinin səbəbləri. Dəri xəstəlikləri haqqında ümumi anlayışlar və onların mərkəzi sinir sistemi və daxili orqanlarla əlaqəsi.<br>Xarici (ekzogen) səbəblər: mexanik təsirlər, kimyəvi və fiziki amillər, patogen mikroblar və göbələklər, heyvan parazitləri, «süzülə bilən» viruslar.<br>Mərkəzi sinir sisteminin fəaliyyətinin pozulması. Daxili (endogen) səbəblər: daxili orqanların vəzilərinin fəaliyyətinin pozulması, vitamin çatışmazlığı və hipovitaminoz. | 8 |
| | Dəri xəstəlikləri, onların növləri və əlamətlərini sadalayır. | Dəri xəstəlikləri. İlkin və ikinci dərəcəli elementlərin anlayışı (etiologiya). Xəstəliyin gedişi (patogenezi).<br>Kosmetoloqların təcrübəsində ən çox rast gəlinən dəri xəstəlikləri (üzdə, boyunda və baş dərisində, qollarda və ayaqlarda lokalizasiya olunan).<br>Sebum ifrazı, tərləmə və keratinləşmə prosesinin pozulması ilə əlaqəli dəri xəstəlikləri: dermatit və ekzema. Peşəkar dəri xəstəlikləri.<br>Dərinin vərəm xəstəliyi.<br>Yoluxucu dəri-zöhrəvi xəstəliklər və onların qarşısının alınması üçün tədbirlər. Püstüler dəri xəstəlikləri: impetigo, follikulit, furunkuloz, karbunkuloz, bakterial sikoz, qızartı və s.<br>Dərinin göbələk xəstəlikləri: trixofitoz, mikrosporiya, favus, epidermofitoz, rubrofitoz.<br>Parazitar dəri xəstəlikləri (qotur və s.).<br>Cinsi yolla keçən xəstəliklər və onların dəridə təzahürü.<br>Yoluxucu dəri xəstəliklərinin yayılmasının qarşısını almaq üçün tədbirlər. | |
| **Ümumi anatomiya və üz anatomiyası** | Anatomiya üzrə ümumi anlayışları bilir və funksiyalarını sadalayır. | Əzələlər, damarlar, sinirlər: üz kəlləsi, beyin kəlləsi, boyun.<br>Sinir sisteminin reflektor fəaliyyəti. Şərti və şərtsiz reflekslər. Serebral korteksdə həyəcan və tormozlama. Həssas və motor analizatorların anlayışı. Beyin qabığında analiz və sintez. Sinir və ikinci siqnal sistemləri haqqında anlayış. Beyin qabığı və onun daxili orqanlara və dəriyə tənzimləyici təsiri. | 18 |
| | Üz anatomiyası, əzələ sistemi üzrə əsas anlayışları izah edir. | Baş və boyundakı mimik əzələlərinin kompleksi. Baş və boyun mimik əzələləri kompleksinin anatomiyası və fiziologiyası.<br>Əzələlərin funksional təşkili.<br>Əzələ aktivliyinin insan orqanizminin integumentar toxumalarının funksional sisteminin vəziyyətinə təsiri.<br>Kosmetik qüsurların əmələ gəlməsində | |

| | | | |
|---|---|---|---|
| | | funksional əzələ aktivliyinin rolu.<br>İnsan bədəninin integumentar toxumalarının damarları. Səthi qan təchizatı sisteminin quruluşu. İntegumentar toxuma kompleksinin arterial və venoz kanallarının fiziologiyası. Əzələ sisteminin integumentar toxuma kompleksinin qan təchizatında funksional aktivliyi. | |
| **Tətbiq edilən metodlar:** | Qrup işi, praktiki məsələlərin həlli, layihə metodu və s. | | |

| | |
|---|---|
| **Modulun adı:** | **Sanitariya və gigiyena** |
| **Modulun kodu:** | |
| **Modul üzrə saat:** | **20 saat** |
| **Modulun növü:** | **Məcburi** |
| **Modulun ümumi məqsədi:** | Kosmosevt peşəsinin icrası üçün tələb olunan sanitariya və gigiyena tələblərinin tədrisi modulun əsas məqsədini təşkil edir. |

| **Təlim nəticəsi** | **Qiymətləndirmə meyarı** | **Mövzu** | **Tədris saatı** |
|---|---|---|---|
| **Kosmosevt işinin tələbləri bilir və gigiyena tələbləri sadalayır.** | Kosmosevt işinin tələblərini və iş şəraitini sadalayır. | Gözəllik salonları, bərbər salonları və s. tərəfindən göstərilən xidmət növləri. Əsas və əlavə xidmətlər.<br>Gözəllik salonlarının binaları, təşkili və avadanlıqları. Gözəllik salonlarının avadanlığı və saxlanması üçün sanitar-gigiyenik tələblər. Mebel, inventar, aparat, alətlər, dəyişək və aksessuarlar, iş paltarı.<br>İş yerinin kosmetikası və ona olan sanitariya tələbləri.<br>Peşəkar gözəllik salonu işçisinin görünüşü üçün estetik tələblər. Xarici görünüşün əsas komponentləri. Geyim, saç düzümü, makiyaj üçün estetik tələblər. | 5 |
| | Kosmosevt işində sanitariya və gigiyena tələbləri sadalayır. | Sanitariya və gigiyena anlayışı. Kosmocevt işində sanitariya və gigiyenanın mənası. Sanitar minimum haqqında qanunvericilik. Kosmocevt işində sanitar qaydalar.<br>Havanın tərkibi, gözəllik salonlarının sahəsinin normaları. Təbii və süni havalandırma. İsitmə yerli və mərkəzidir. Təbii və süni işıqlandırma. Otağın dekorasiyası. Gözəllik salonlarının ümumi qaydası və sanitar texniki qulluğu. Müştəri xidməti üçün dəyişəyə sanitar tələblər. Alətlərin dezinfeksiyası. Əllər və üz üçün dezinfeksiyaedicilər. Dezinfeksiyaedicilərin qısa təsviri, onlardan istifadə və saxlama qaydaları.<br>Gözəllik salonunun işçiləri üçün sanitar-gigiyenik tələblər: şəxsi gigiyena, iş paltarının, dəyişəyin təmizliyi, tibbi müayinələr. | |
| **Mikrobiologiya və epidemiologiya sahəsi üzrə əsas anlayışları bilir.** | Mikrobiologiya və epidemiologiya üzrə əsas anlayışları sadalayır. | Mikroblar və Mikrobiologiya. Mikrobların təsnifatı və fiziologiyası. İnfeksiya anlayışı. İnfeksiya mənbələri: xəstələr, basillər, qida, xarici mühit (hava, su, torpaq). Böcəklər – infeksiyanın daşıyıcısıdır. Heyvanlardan insanlara keçən xəstəliklər. İnfeksiya qapısı. İmmunitet – orqanizmin özünümüdafiəsidir (təbii, süni, anadangəlmə və qazanılmış). | 7 |
| | Aseptiklər və antiseptikləri sadalayır və təyinatını izah edir. | Aseptik və antiseptik anlayışı.<br>Antiseptiklər (kimyəvi və bioloji), onlardan istifadə üsulları. Gözəllik salonları üçün alət və materialların sterilizasiyası və onların saxlanması qaydaları. | |

| | | | |
|---|---|---|---|
| **Ehtiyaca uyğun bədbəxt hadisələr zamanı ilk tibbi yardım göstərməyi bacarır.** | Bədbəxt hadisə zamanı ilk tibbi yardım qaydalarını izah edir və tətbiq etməyi bacarır. | Yanıqlar, kəsiklər, huşunu itirmə, elektrik vurması, anafilaktik şok və s. hallarda ilk tibbi yardım qaydaları | 8 |
| **Tətbiq edilən metodlar:** | Qrup işi, praktiki məsələlərin həlli, layihə metodu və s. | | |

| | |
|---|---|
| **Modulun adı:** | **Klassik kosmetologiya** |
| **Modulun kodu:** | |
| **Modul üzrə saat:** | **160 saat** |
| **Modulun növü:** | **Məcburi** |
| **Modulun ümumi məqsədi:** | Klassik kosmetologiya sahəsi üzrə əsas anlayışlar, prosedura və tətbiqlərin tədrisi modulun əsas məqsədini təşkil edir. |

| Təlim nəticəsi | Qiymətləndirmə meyarı | Mövzu | Tədris saatı |
|---|---|---|---|
| **Üz dərisinin növləri, onların xüsusiyyətləri və dəri problemlərini izah edir.** | Üz dərisinin növləri, onların xüsusiyyətləri və dəri problemlərini sadalayır. | Üz dərisinin növləri: quru, yağlı.<br>Dərinin vəziyyəti: həssaslıq, susuzlaşdırma.<br>Dəri problemləri: məsaməli dəri, sızanaqlar, quru və yağlı seboreya, xal və digər xoşxassəli yenitörəmələr, piqmentli xallar, hipertrikoz, şişlik, çillər, allergiya, rosaçea və s.<br>Periorbital nahiyə üçün dəriyə kosmetoloji qulluq prinsipləri.<br>Dəri fototiplərinin təsnifatı.<br>Sebum ifrazı. Onun fəaliyyətini təyin edən amillər<br>Üz dərisində yaşla bağlı dəyişikliklər: qırışlar, üzün oval və rənginin dəyişməsi, əzələlərin prolapsı və ləngliyi, turgor, yaşla bağlı bədxassəli olmayan yenitörəmələr, qoşa çənə. | 18 |
| **Üz üçün tətbiq edilən kosmetik prosedurаları bilir və icra edir.** | Üz üçün kosmetik prosedurаları icra edir | Kosmetik prosedurların növləri: gigiyenik, üzü vakuumla təmizləmək, kompreslər, aşındırıcı prosedurlar (pilinq), qidalandırıcı, nəmləndirici, modelləşdirmə maskaları, liftinq (qırışların hamarlanması).<br>Müxtəlif dəri tipləri üçün kosmetik qulluğun əsasları: normal dəriyə qulluq, quru dəriyə qulluq, yağlı dəriyə qulluq, qarışıq dəriyə qulluq, həssas dəriyə qulluq.<br>Müxtəlif yaş dəri tipləri üçün kosmetik qulluğun əsasları.<br>Hər bir kosmetik prosedur üçün göstərişlər və əks göstərişlər. İş yerinin və müştərinin kosmetik prosedura hazırlanması. | 28 |
| **Müxtəlif növ dərilərin təhlili və müştəri üçün kartın açılmasını bacarır** | Dərinin təhlili və müştəri kartının doldurulmasını göstərir. | Anamnez toplanması, sənədləşmə işləri, razılaşma, tərəflərin məsuliyyəti | 6 |
| **Müxtəlif üz masajı növlərini icra etməyi bacarır** | Masaj anlayışı, əhəmiyyəti və üz masajının təyinatını izah edir. | Masaj anlayışı və onun mahiyyəti. Masajın mərkəzi sinir sisteminə fizioloji təsiri. Kosmetik qüsurların qarşısının alınmasında üz masajının dəyəri. Üz əzələlərinin, üz və boyun venoz və limfa sistemlərinin topoqrafik anatomiyası. Üz dərisinin ən az uzanan xətlərinin yeri (masaj xətləri). | 46 |
| | Müxtəlif üz masajı növlərini qaydalara uyğun icra edir. | Masaj növləri: Klassik üz masajı. Üzün lenfatik drenaj masajı. Baş dərisini masaj edilməsi. Əl masajı. | |

| | | | |
|---|---|---|---|
| **Aparat kosmetologiyası üzrə avadanlıqların təhlükəsizlik qaydalarına uyğun istifadə edir.** | Elektroterapiya izah edir və istifadə təyinatını bilir. | Elektroterapiya (darsonvalizasiya, mikro cərəyan terapiyası, elektrokoaqulyasiya, elektromiyostimulyasiya, elektroforez və s.) Fotodinamik terapiya. | 30 |
| | Lazerlər, onlardan istifadə və lazer şüalanması zamanı əks göstərişləri izah edir. | Lazerlər. Lazer təsnifatları (fiziki xüsusiyyətlərə görə, ifşa etmək məqsədi ilə). Lazer radiasiyasının örtük toxumalarına təsir mexanizmləri. Prosedurların həyata keçirilməsinin texnikası və üsulları. Aşağı intensivlikli lazer şüalanması. Göstərişlər, əks göstərişlər. Yüksək intensivlikli lazer şüalanması. Göstərişlər, əks göstərişlər. | |
| | Radio dalğa terapiyası, ondan istifadəni izah edir. | Radio dalğa terapiyası (bipolyar dalğa və monopolyar dalğa). Termoterapiya Fiziki və mexaniki amillər. Ultrasəs terapiyası və ultrasəs generatorları. Dərinin yenilənməsi (brosaj, dermabraziya, mikrodermabraziya, qaz-maye pilinqi). | |
| | Müxtəlif növ aparatlar ilə müxtəlif qulluq proseduralarını icra edir. | Hər bir aparat prosedura növü üçün göstərişlər və əks göstərişlər. İş otağının və müştərinin aparat proseduruna hazırlanması.<br>– Darsonval<br>– Ultrasəs<br>– Elektroforez<br>– Mezoporasiya<br>– Mikro cərəyan terapiyası<br>– Miostimulyasiya<br>– Vakuum masajı<br>– Dermabraziya<br>– Qaz-maye pilinqi<br>– Lazer epilyasiya | |
| **Makijayın növləri və təyinatını izah edir və müxtəlif növ makiyaj işini icra edir.** | Dekorativ kosmetikada istifadə edilən vasitələr, məhsullar və onların xüsusiyyətlərini izah edir. | Dekorativ kosmetikanın inkişaf tarixi. Dekorativ kosmetika. Göz bəzəyi üçün dekorativ vasitələr (kontur, kölgələr, tuş). Növləri, tərkibi, xassələri, rəngləri, çeşidi. Dodaqlar üçün dekorativ məhsullar. Növləri, tərkibi, xassələri, rəngləri, çeşidi. Kontur qələmi, pomada, parıltı. Müalicəvi xüsusiyyətlərə malik pomada xüsusiyyətləri. Dəri üçün dekorativ məhsullar. Növləri, tərkibi, xassələri, rəngləri, çeşidi. Tonal kremlər. Boş toz və yığcam toz, krem tozu. Dekorativ kosmetika üçün tələblər. | 24 |
| | Makiyaj zamanı nəzərə alınmalı üz qruplusu və istifadə edilən rənglər haqqında şərh verir. | Makiyajda rənglər və harmoniya. Saçın, gözlərin, dərinin rəngini nəzərə alaraq makiyaj seçimi. Üzün quruluşunun, formasının, nisbətlərinin öyrənilməsi. Üz formalarının müasir təsnifatı. Üzün yeddi əsas formasının xüsusiyyətləri. Üz detallarının formaları və onların xüsusiyyətləri. | |
| | Makiyaj üçün istifadə edilən alət və | Gözəl makiyaj tətbiq etmək üçün alətlər və avadanlıqlar. Makiyaj tətbiq etmək üçün əsas | |

| | | | |
|---|---|---|---|
| | avadanlıqlardan istifadə etməyi bacarır. | qaydalar: tamamilə təmiz üz (tonik və ya losyonla hərtərəfli silinmiş); yalnız gündüz kreminin tətbiqi (dəridə qoruyucu bir təbəqə buraxdığı üçün); boyun və dekolte həmişə baxımlı, tonlaşdırılmış və pudralanmış olmalıdır; ton rəngi dəri rəngindən əhəmiyyətli dərəcədə fərqlənməməlidir. | |
| | Tələblər nəzərə alınmaqla müxtəlif növ makiyaj işini icra edə bilir. | Makiyajın növləri (sadə, mürəkkəb) və məqsədi (gündüz, axşam). Dekorativ kosmetikadan istifadə edərkən üz dərisinə qulluq xüsusiyyətləri. Sadə və mürəkkəb makiyaj texnologiyası. Üzün formalarının və detallarının korreksiyası. Makiyajda modanın müasir tendensiyası. Dəbli makiyajın xarakterik xüsusiyyətləri (rənglər, dizaynlar). Müasir gündüz (xüsusi) makiyaj texnologiyası və onda istifadə edilən dekorativ kosmetika. Göz konturunun tətbiqi texnikası, kölgələr, tuş, ənlik, pudra. Müasir axşam (xüsusi) makiyaj texnologiyası, dekorativ kosmetikadan istifadə olunur. | |
| **Kosmetik kimyası üzrə məlumatlara malikdir.** | Müxtəlif növ kosmetika vasitələrinin istehsalı, təyinatına uyğun istifadəsi ilə bağlı məlumatları sadalayır. | Parfümeriya və kosmetika məhsullarının istehsalı. Kosmetika istehsalında istifadə olunan əsas xammal. Yağ və piy. Bitki və heyvan mənşəli mumlar. Karbohidratlar, turşular, qələvilər, spirtlər. Emulqatorlar, neft məhsulları. Konservantlar. Ətirlər. Proteinli qidalar. Vitaminlər. Bitki mənşəli bioloji aktiv maddələr. Gözəllik salonlarının praktikasında və evdə istifadə olunan müasir kosmetik və gigiyena vasitələrin növləri. Dəriyə qulluq məhsulları. Növləri, tərkibi, xüsusiyyətləri. Kosmetik kremlər: qidalandırıcı, nəmləndirici, yumşaldıcı, tonlayıcı, ağardıcı, iltihab əleyhinə, aşındırıcı, antiseptiklərlə qoruyucu, xüsusiyyətlər və onlara olan tələblər. | 8 |
| **Tətbiq edilən metodlar:** | Qrup işi, praktiki məsələ həlli, layihə metodu və s. | | |

| | | | |
|---|---|---|---|
| **Modulun adı:** | **Klassik mezoterapiya** | | |
| **Modulun kodu:** | | | |
| **Modul üzrə saat:** | **20 saat** | | |
| **Modulun növü:** | **Məcburi** | | |
| **Modulun ümumi məqsədi:** | Mezoterapiya metodunun mahiyyəti, istifadə olunan dərmanlar və onların qəbul üsulları üzrə ilkin məlumatların verilməsi modulun əsas məqsədini təşkil edir. | | |
| **Təlim nəticəsi** | **Qiymətləndirmə meyarı** | **Mövzu** | **Tədris saatı** |
| **Mezoterapiya metodunun mahiyyətini izah edir.** | Mezoterapiyanın tarixiini və metodun mahiyyətini izah edir. | Metodun tərifi, mahiyyəti, orqanizmə təsir nəzəriyyəsi. Prosedurаların şərtlərinə dair tələblər | 5 |
| **Mezoterapiya üçün istifadə olunan dərmanlar və qəbul üsullarını izah edir.** | Mezoterapiya üçün istifadə olunan dərmanlar, onlara tələblər və istifadə qaydalarını şərh edir. | Enjeksiyon mezoterapiyası üçün dərman vasitələrinə tənzimləyici tələblər və qeydiyyat formaları. Dərman vasitələrinin təsnifatı, istifadə qaydaları, saxlanma şəraiti. Mezoterapiya üçün dərmanların seçilməsi meyarları. Dərmanın təsir mexanizmləri. | 10 |
| | Dərmanların qəbulu üsullarını izah edir. | Təqdimat texnikası və üsulları. Göstərişlər. Əks göstərişlər. Yan təsirlər və ağırlaşmalar. | |
| **Plastik cərrahiyyənin növləri haqqında məlumatı var** | Plastik cərrahiyyənin növləri və reabilitasiya haqqında məlumat verir. | Plastik cərrahiyyə növləri. Plastik əməliyyatdan sonra reabilitasiya. Plastik əməliyyatdan sonra xəstə ilə effektiv qarşılıqlı əlaqənin əsasları. | 5 |
| **Tətbiq edilən metodlar:** | Qrup işi, praktiki məsələ həlli, layihə metodu və s. | | |

| | |
|---|---|
| **Modulun adı:** | **Diyetologiya və nutrisevtikanın (sağlam qidalanma) əsasları** |
| **Modulun kodu:** | |
| **Modul üzrə saat:** | **20 saat** |
| **Modulun növü:** | **Məcburi** |
| **Modulun ümumi məqsədi:** | Həzm sistemi, onun qida balansının pozulmasından yaranan xəstəliklər, müxtəlif pəhrizlər və onların hazırlanması ilə bağlı ilkin məlumatların verilməsi modulun əsas məqsədini təşkil edir. |

| **Təlim nəticəsi** | **Qiymətləndirmə meyarı** | **Mövzu** | **Tədris saatı** |
|---|---|---|---|
| **Həzm sisteminin quruluşu və qida balansı pozulmasından yaranan xəstəliklər haqqında bilir.** | Həzm sisteminin fiziologiyasını və qida balansının pozulması ilə bağlı yaranan xəstəlikləri şərh edir. | Həzm sisteminin fiziologiyasını, həzm mərhələlərini və mexanizmlərini başa düşmək. Qida balansının pozulması ilə əlaqəli ümumi xəstəliklər: qida dözümsüzlüyü, piylənmə, anoreksiya, hipoqlikemiya və s. Piylərin yandırılmasının biokimyəvi incəliklərini və bədənin enerji təchizatının bütün mexanizmlərini başa düşmək | 8 |
| **Makro və mikroelementlər haqqında bilir.** | Mikro və makroelementlər, onların funksiya və mənbələrini izah edir. | Mikro və makroelementlərin mənbələri (zülallar, yağlar, karbohidratlar, vitaminlər, minerallar, lif və bioloji aktiv maddələr). Lazım olan enerji miqdarının hesablanması (kilokalori). Pəhrizdə suyun funksiyası, təsiri. | 4 |
| **Qidalanmanın dəri vəziyyətinə təsiri, pəhriz və qidalanma planı hazırlanmasını izah edir.** | Pəhrizlər, qidalanma planın hazırlanması və qidalanmanın orqanizmə təsirini izah edir. | Pəhrizlərin nəzərdən keçirilməsi. Təmizlənmiş və təmizlənməmiş məhsulların tərifi, məhsulların emal üsulları. Orqanizmin məqsədlərini və xüsusiyyətlərini nəzərə alaraq fərdi pəhrizin inkişafı. Topikal və müasir pəhriz əlavələri | 8 |
| **Tətbiq edilən metodlar:** | Qrup işi, məsələ həlli, layihə metodu və s. | | |

| | |
|---|---|
| **Modulun adı:** | **Peşə etikası** |
| **Modulun kodu:** | |
| **Modul üzrə saat:** | **10 saat** |
| **Modulun növü:** | **Məcburi** |
| **Modulun ümumi məqsədi:** | Kosmesevt peşəsinin icrası zamanı diqqət edilməli peşə etikası qaydaları və etiketləri, həmçinin ünsiyyət psixologiyası və münaqişələrin idarə edilməsi üzrə ilkin məlumatların verilməsi modulun əsas məqsədini təşkil edir. |

| **Təlim nəticəsi** | **Qiymətləndirmə meyarı** | **Mövzu** | **Tədris saatı** |
|---|---|---|---|
| **Peşəkar etika və xidmət mədəniyyəti üzrə əsas anlayış və yanaşmaları bilir.** | Peşəkar etika və xidmət mədəniyyəti üzrə əsas anlayış və yanaşmaları sadalayır və izah edir. | Etikanın əsas kateqoriyaları. Peşə etikası anlayışı, kateqoriyalar. Əlaqə sahəsi işçisinin peşəkar davranışının mahiyyəti. Peşəkar davranış üçün mənəvi tələblər.<br>Etiketin əhatə dairəsi. Kosmetoloji salonunda ünsiyyət üslubları.<br>Nitq etiketinin növləri: peşə fəaliyyətində tətbiqi. Şifahi olmayan ünsiyyət yolları. | 3 |
| **Xidmət sektorunda ünsiyyət psixologiyası haqqında məlumata malikdir.** | Ünsiyyət psixologiyası üzrə əsas anlayış və yanaşmaları sadalayır və izah edir. | Şəxsiyyətin psixoloji quruluşu.<br>Ünsiyyətin psixoloji əsasları.<br>Ünsiyyət prosesinin psixoloji baxımdan səciyyələndirilməsi. Gözəllik salonunda müştəri xidməti prosesinin psixoloji mərhələləri. Fərdi yanaşma. Psixoloji əlaqə qurmağın dəyəri. | 3 |
| **Xidmət sektorunda münaqişələrin növləri və səbəblərini izah edir.** | Temperament və xarakterin təyini üsullarını izah edir. | Peşəkar keyfiyyətlərin fərdin psixi xüsusiyyətindən asılılığı.<br>Şəxsiyyətin peşəkar oriyentasiyası anlayışı | 4 |
| | Xidmət sektorunda münaqişələrin növləri, mənbələri və səbəblərini izah edir. | Münaqişələrin qarşısının alınması və aradan qaldırılması yolları.<br>Ünsiyyət bacarıqları və vərdişləri.<br>Təşkilati mədəniyyət, onun mahiyyəti və konkret peşə fəaliyyətində rolu | |
| **Tətbiq edilən metodlar:** | Qrup işi, məsələ həlli, layihə metodu və s. | | |

<table>
<tr><td>Modulun adı:</td><td colspan="3">Sahibkarlıq</td></tr>
<tr><td>Modulun kodu:</td><td colspan="3"></td></tr>
<tr><td>Modul üzrə saat:</td><td colspan="3">10 saat</td></tr>
<tr><td>Modulun növü:</td><td colspan="3">Məcburi</td></tr>
<tr><td>Modulun ümumi məqsədi:</td><td colspan="3">Sektor üzrə sahibkarlıq fəaliyyətinin təşkili, satışın təşkili və həvəsləndirilməsi üçün müxtəlif marketinq alətləri haqqında ilkin məlumatların verilməsi modulun əsas məqsədini təşkil edir.</td></tr>
<tr><td>Təlim nəticəsi</td><td>Qiymətləndirmə meyarı</td><td>Mövzu</td><td>Tədris saatı</td></tr>
<tr><td>Müəssisənin hüquqi formalarını bilir və fərqləndirir.</td><td>Hüquqi və fiziki şəxs olaraq yaradılan müəssisələrin növləri və məsuliyyət sahələrini izah edir.</td><td>Hüquqi və fiziki şəxslərin idarə edilməsinin təşkilati-hüquqi formalarının xüsusiyyətləri. İstehlakçı hüquqlarının müdafiəsi haqqında qanun (malların, işlərin, xidmətlərin təhlükəsizliyi hüququ; istehlakçının mal haqqında satıcı haqqında məlumat almaq hüququ; keyfiyyətli mal hüququ), məsuliyyət növləri. Əmək haqqı.</td><td>3</td></tr>
<tr><td rowspan="2">Müştəri işə işin qurulması və müxtəlif marketinq alətlərinin tətbiqini bacarır.</td><td>Müştəri növlərini sadalayır və düzgün kommunikasiya kanallarını şərh edir.</td><td>Müştəri növləri. Kommunikasiya üsulları. Satış kanalları və üsulları.</td><td rowspan="2">3</td></tr>
<tr><td>Satış üçün müxtəlif marketinq alətləri, tədbirlərini izah edir.</td><td>Marketinq tədqiqatının Əsasları. Sosial şəbəkələrdə tanıtım. Məqsədli marketinq. Tələbin yaradılması və satışın təşviqi. Məhsulların satışı.</td></tr>
<tr><td>Kosmesevt işinə uyğun maliyyə hesablamalasını həyata keçirir.</td><td>Əməliyyatlar və proseduralar üzrə xərc və hesabat hazırlayır.</td><td>Prosedurlar üçün hesablamaların hazırlanması. Prosedurun dəyəri. Xərclərin uçotu.<br>Hesabatlılıq.</td><td>4</td></tr>
<tr><td>Tətbiq edilən metodlar:</td><td colspan="3">Qrup işi, praktiki məsələ həlli, layihə metodu və s.</td></tr>
</table>

| | |
|---|---|
| **Modulun adı:** | **İstehsal təlimi / təcrübəsi** |
| **Modulun kodu:** | |
| **Modul üzrə saat:** | **200 saat / 180 saat** |
| **Modulun növü:** | **Məcburi** |
| **Modulun ümumi məqsədi:** | Sektor üzrə sahibkarlıq fəaliyyətinin təşkili, satışın təşkili və həvəsləndirilməsi üçün müxtəlif marketinq alətləri haqqında ilkin məlumatların verilməsi modulun əsas məqsədini təşkil edir. |
| **Təlim nəticəsi** | **Qiymətləndirmə meyarı / Fəaliyyətlər / Mövzu** |
| **İş yerində əməyin təhlükəsizliyi, elektrik və yanğın təhlükəsizliyi üzrə təlimatlara diqqət edir.** | İş yerində əməyin təhlükəsizliyi, elektrik və yanğın təhlükəsizliyi üzrə təlimatları sadalayır və izah edir. |
| **İş yerində müxtəlif kosmetik qulluq tədbirlərini texnikasına uyğun icra edir.** | • İş yerinin təşkili<br>• Müştərinin anamnezinin toplanması<br>• İş üçün lazım olan işçi materiallarının hazırlanması<br>• Makiyaj təmizləyicisi<br>• Tonlama<br>• Maskaların tətbiqi texnikası (dərini təmizləyən, nəmləndirən, yumşaldan, qidalandıran, elastikləşdirən, qaldıran və ağardan, onun stimullaşdırılması və tonlanmasına kömək edən, iltihab əleyhinə və quruducu təsirə malik olan)<br>• Üzün mexaniki təmizlənməsi (göstərişlər, əks göstərişlər, texnika, mümkün fəsadlar)<br>• Kimyəvi pilinq (göstərişlər, əks göstərişlər, texnika, mümkün fəsadlar, soyma sonrası dəri vəziyyəti)<br>• Masaj (klassik kosmetik, limfa drenajı) göstərişləri, əks göstərişləri, texnikası.<br>• Baş dərisinin masajı<br>• Əl oynaqlarının masajı<br>• Aparat kosmetologiyası kursu (elektroforez, darsonvalizasiya, mikro cərəyan terapiyası, vakuum masajı, dermabraziya, mezoporasiya, lazer, hidro-bərpa, oksigen terapiyası)<br>• Mezoterapiya, dermapen<br>• Maqqaşla qaşların formalaşdırılması, qaş və kirpiklərin rənglənməsi<br>• Qulaq pirsinqi<br>Makiyaj |
| **Müxtəlif kosmetik qulluq tədbirlərindən sonrakı fəaliyyətləri icra edir.** | • Evdə qulluq üçün tövsiyələr<br>• Həyat tərzi üçün tövsiyələr<br>• Əlavə prosedurlar üçün tövsiyələr<br>Kosmetika və onunla əlaqəli məhsulların satışı |
| **Tətbiq edilən metodlar:** | Praktiki fəaliyyətlər müəllim və ya işəgötürən tərəfindən təyin edilmiş mentorun müşayəti ilə pasient və ya qonaqlar üzərində həyata keçirilir. |

## 6. Attestasiya və qiymətləndirmə

Təhsil proqramı üzrə attestasiya və qiymətləndirmə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 13 mart 2019-cu il tarixli KQ-06 nömrəli Kollegiya Qərarı ilə təsdiq edilmiş "Peşə təhsili pilləsində təhsilalanların attestasiyasının aparılması Qaydası" əsasında həyata keçirilir.

Modullar üzrə qiymətləndirmədə test sualları, sual-cavab, praktiki tapşırığı və praktiki keysin həlli kimi qiymətləndirmə üsullarından istifadə edilə bilər.

Təhsil proqramı üzrə attestasiya və qiymətləndirmə prosesindən müvəffəqiyyət əldə edilmiş təhsilalanlar peşə təhsili haqqında sertifikat əldə edəcəkdir.

## 7. Tədris edəcək pedaqoji heyətə qoyulan tələblər

Tədris aparacaq mühəndis-pedaqoji heyət üzvünün müvafiq peşə-ixtisas sahəsi üzrə baza təhsili (ali, orta ixtisas) və ixtisas üzrə stajı (azı 3 il istehsalat və ya pedaqoji təcrübəsi) olmalı, tədris etdiyi modullar baza ixtisasına uyğun gəlməlidir. Təlimçi tələbələr və həmkarları ilə ünsiyyət qurmaq bacarığına, əlaqələndiricilik, istiqamətvericilik, əməkdaşlıq, tədqiqatçılıq, özünü təhsil və idarəçilik bacarığı, öz fəaliyyətini təqdim etmək və qabaqcıl pedaqoji təcrübələrdən bəhrələnmək bacarığı; ədalətlilik, məsuliyyətlilik və cavabdehlik, xüsusiyyətlərinə malik olmalıdır.

Tələbələrin ixtisasları üzrə dövrün tələbatına uyğun elmi-nəzəri bilikli mütəxəssis, tədqiqatçı kimi yetişmələrinə çalışmalı, müasir texnika, yeni istehsal və pedaqoji texnologiyalardan istifadə etmək, innovativ təlim metodlarından, müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etmək bacarığı aşılamalıdır.